# Mədəni dəyərlərə qayğı

**Qax rayonu Azərbaycanın qədim tarixə malik bölgələrindəndir. Bu diyarın hər daşı, hər guşəsi bir tarixdir.**

**Qax Rayon Mədəniyyət və Turizm Şöbəsinə Nəzir Osman oğlu Omarov rəhbərlik edir. Nəzir müəllim incəsənətlə bağlı insandır. İxtisasca musiqiçidir. Qaxın tarixini, adət-ənənələrini dərindən bilən bir insandır.**

Nəzir müəllim bütün həyatını, fəaliyyətini mədəniyyət və incəsənət sahəsinə bağlayıb. O, 1972-ci ildən mədəniyyət sahəsində çalışır. Əvvəl musiqi məktəbində, sonra Qax rayon mədəniyyət evində fəaliyyət göstərib.

1994-cü ildən Qax Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiridir. Rayonda Azərbaycan musiqisinin inkişafı və təbliğində, uşaqlarda musiqiyə maraq hissinin oyadılmasında Nəzir Omarovun əməyi böyükdür.

Rayon Mədəniyyət evində fəaliyyət göstərən "Arzu" xalq kollektivi onun təşəbbüsü ilə yaradılmışdır. Həvəskar bəstəkar kimi mahnıları tədbirlərdə, el şənliklərində ifa olunur. Ümummilli lider Heydər Əliyev ikinci dəfə Azərbaycanda siyasi hakimiyyətə gəldikdən sonra bütün sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də durğunluq aradan qalxmağa başladı.

**Azərbaycan Prezidenti cənab İlham Əliyevin mədəniyyət və incəsənətin inkişafı ilə bağlı imzaladığı fərman və sərəncamları, Heydər Əliyev fondunun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın milli-mədəni dəyərlər və musiqi ənənələrimizin qorunub saxlanılmasına yönəlmiş fəaliyyəti bir örnək kimi Qax Rayon Mədəniyyət və Turizm Şöbəsinin əməkdaşlarını fəaliyyətlərini yüksək səviyyədə qurmağa ruhlandırır...**

**Şükufə ŞABANOVA,**
*"Şəlalə" qəzetinin müxbiri*